# Mənim bir yazı günüm



Eyvaz Zeynalov

Səhərlər evimizdə hamıdan əvvəl mən dururam. Əlbəttə, həmişə eyni vaxtda alınmır. Eyni vaxtda alınmasına heç cəhd də etmirəm. Bir dəfə altı olur, o biri dəfə yeddi, səkkiz və s.

Mətbəxə düşürəm. Acqarına bir stəkan su içirəm. Çaydanı doldurub zəif xodda qazın üstünə qoyuram. Kombini yandırmağa gedirəm. Bütün günü evdə isti su lazım olur. Gecə yatmazdan qabaq onu, adətən, oğlum söndürür.

Həyətə çıxıram. Şəhər həyətidi də, o qədər böyük deyil. Bağçada hərlənirəm. Çiyələkləri, nanə, yarpız ləklərini, limon, portağal ağaclarını (hərəsindən bir dənədi) suvarıram. Meyvə ağaclarının suvarılması ilə iki həftədən, on gündən bir axşamlar məşğul oluram.

Geri qayıdanda ev adamlarını - həyat yoldaşımı, oğlumu, gəlinimi, nəvəmi mətbəxdə görürəm. Yüngülvarı səhər yeməyi yeyib otağıma qalxıram.










Noutbukumu yandırıram. Poçtumu gözdən keçirirəm.

Artıq bir ilə yaxındı üstündə hazırlıq işləri apardığım, yazmağa başladığım “Nadir şah” romanımı açıram. Hə, bir ilə yaxındı dünya fatehləri arasında öz yeri olan Nadir şaha “mirzəlik edirəm”. İşlərim çətin gedir. Hər şey elə noutbuku açıb qarşısında əyləşmək qədər asan olsaydı, nə vardı! Yazmaq üçün əvvəlcə uyğun əhval-ruhiyyəyə köklənmək lazımdı. Yumurtası tərs gəlmiş toyuq kimi otaqda vurnuxuram. Gah kitab şkafının qarşısında dayanıb kitablara, gah da pəncərədən bayıra baxıram. Küləklərin dəliliyi tutub. Yox, əşi, ilham pərisinə ümid bağlamağa dəyməz. Bu, yazmamağa bəhanə axtarmaq kimi bir şeydi.

Yekə çıxmasın, ilk dəfədi tarixi roman yazıram. Düzü, bu qədər çətin olduğunu təsəvvür etmirdim. Tarixi roman yazan yazıçılarımızdan biri tarixi materiallara çox uymamağı məsləhət görmüşdü. Yazmağa başlamazdan qabaq Nadir şah haqqında tədqiqatçılarımızın yazdığı sanballı kitablarını, yazıçılarımızın 2 romanını, bir Dağıstan, bir rus yazıçısının rus dilindəki romanlarını oxumuşam. Əlimin altında bir ingilis, bir İran, bir türk tədqiqatçısının mötəbər kitabları yatır. İnternetdən rus, türk dilində nə qədər kitabların, materialların elektron variantını toplamışam. Amma bir çox suallarıma hələ də düz-əməlli cavab tapa bilməmişəm.

Nə bilim, hələ yazıram. Nə, necə alınacaq, onu zaman göstərəcək. Ən doğru, ədalətli qiyməti ni də əlahəzrət zaman verəcək. Ən böyük məhək daşı odu. Ancaq bacardığım qədər tarixiliyi qorumağa çalışıram. Məxəzlərdə cavab tapmadığım sualların izahında isə məntiqə əsaslanıram.

Nadir şah haqqında roman yazmamışdan əvvəl Teymurləng barədə bir hekayə yazıb “525-ci qəzet”də çap etdirmişəm. Bunu, bir növ, hazırlıq, məşq də adlandırmaq mümkündü.

Mən, ümumiyyətlə, çətin yazıram. Çox vasvasıyam. Hər cümləmi dönə-dönə çək-çevir edirəm. Bəzi yazıçılar deyir ki, nə yazsaq, bir dəfə yazırıq, sonra onun üstünə təkrar qayıtmırıq. Bələlərinə, yaxşı mənada, paxıllığım tutur. Ancaq çoxillik təcrübəmdən yanaşanda, belə bir şeyin mümkünlüyünə o qədər də inanmıram.

Yazdığım yerdə qapım yavaşca aralanır.

- Baba, mən gəldim, - nəvəm Muraddı. 4 yaşını 2-3 aydı tamamlayıb, yəni 5 yaşının içindədi. İstədiyi vaxt icazəsiz-filansız otağıma daxil olmağa evimizdə yalnız onun ixtiyarı çatır. - Baba, şeir deyim?

- De. - Xırda-para xeyli şeir bilir. Son vaxtlar anası “Azərbaycan” şeirindən hər gün bir bənd öyrədir. - Şeiri kim yazıb? - Deyib qurtarandan sonra soruşuram.

- Səməd Vurğun.

-Afərin! --Tərifi, xüsusən, bu sözü çox xoşlayır.

-Gedək oynayaq? - Elə bilir bunun tayı-tuşuyam. Etirazın da xeyri yoxdu.

Onu qınamıram, tək uşaqdı, darıxır. Qızımın uşaqları gələndə (yaxınlıqda olurlar, tez-tez gəlirlər), günü xoş keçir, mən heç yada düşmürəm. Birtəhər başımdan eləməyə çalışıram. Həm də elə bir tərzdə ki, xətrinə dəyməsin, inciməsin. Bezmiş halda gileylənir: “Nə çox yazırsan ey...” Öz sözü deyil, evdəkilərdən eşitdiyi sözlərdi. Birdən yadıma düşür:

- Yaxşı, de görüm, bir kiloqram qoz çoxdu, yoxsa, bir kiloqram fındıq?

- Qoz! - Fikirləşmədən cavab verir.

- Niyə?

- Bilmirsən? Qoz fındıqdan yekədi də.

Tay-tuşlarının çoxundan fərqlənir. Bir az ingilis, bir az rus, bir az türk dillərindən bilir, hərfləri, rəqəmləri tanıyır, yüzəcən sayır, 10 dairəsində toplayır, çıxır. Di gəl neçə gündü bu çəki məsələsini dərk, həzm edə bilmir.

Şərt kəsirik, o gedib bu məsələni anasından bir daha öyrənəcək, mən də bir az yazıb onunla oynamağa gələcəyəm. Razılaşır. Amma nəvəm gedəndən sonra yazmağı davam etdirə bilmirəm. Onsuz da orda çox qalmayacaq. Səbri yoxdu, bir də gördün qayıdıb gəldi, təzədən fikrimi dağıtdı. Yaxşısı budu, özüm durum gedim.

Yarım saat nəvəmlə əylənir, başını qatıram. Sonra televizoru yandırır, cizgi filmi tapıram. Murad həvəslə ona baxmağa başlayır, mən də yoldaşımla bazarlığa gedirəm. Bir tərəfdən yayın istisi, o biri tərəfdən də neçə gündü əsən dəli küləyin qaldırdığı toz-torpaq zəhləmi tökür. Evə çim tərin içində qayıdıram. Hamamda yaxalanıram. Yayda hamamdan sonra çay içməyi xoşlamıram. Təzədən tərləyirəm, hamamlanmağın ləzzəti qaçır.

Otağıma keçirəm. Bir az da yazımla məşğul oluram. Bu da, təxminən, nahara qədər uzanır. İştahamı meyvə ilə açıram. Nahardan sonra uzanıb telefonda bir qədər facebook aləminə dalıram. Maraqlı bir şey gözümə




dəyməyəndə yarımçıq qaldığım kitablardan birini götürüb oxuyuram. Kitabların çoxunu yarımçıq saxlayıb, asanca başqasına keçə bilirəm. Üstündə işlədiyim yazılarda bunu bacarmıram. Məncə, bacarsaydım, xeyrini daha artıq görərdim. Növbə gözləyən, yazmağı planlaşdırdığım mövzular çoxdu. Birinin üstündə işlərim çətinə dirənəndə o birinə keçər, sonra yenidən əvvəlkinə qayıdardım.

Günortadan sonra bir daha noutbukumun arxasına keçirəm. Saat dördlə beş arası, bəzən daha tez bir az yatıram. Hərdən bu, altının yarısınacan çəkir.

İki gündü dəli küləklərin hesabına bu vaxtların yuxusunu da düz-əməlli ala bilmirəm. Pəncərəni bağlayırsan, istidən yatmaq olmur. Açırsan, külək toz-torpağı içəri doldurur. Kondisioneri işlədirsən, ziyan eləyir, xəstələnirsən. Tək külək dərdi deyil. Yayda bir tərəfdən də ağcaqanad problemi var. Vay odu biri hansı yollasa otağıma yol tapa, axırına çıxınca fikrim onda qalır. Bax, bu küləyin, ağcaqanadın, bir də çiy halda içməyə yaramayan suyun dərdindən bir zaman institutu bitirəndə istəsəm də, Bakıda qalmamışdım. Ağdamda bayaqdan sadaladığım problemlərin heç biri yoxdu. Qismətə bir bax, onu da erməni işğal elədi, məcburən Bakıya pənah gətirəsi olduq.

Həyətə düşürəm. Külək orda da ağaclara yağı kəsilib. Armud ağacı bu il babat bar gətirmişdi. Dəli külək hamısını yerlə bir eləyib.

Dilxor halda otağıma qayıdıram. Həvəsim olmasa da, noutbukumun arxasında yerimi tuturam. Lakin bu, yazmaq yox, baş qatmaqdı. Bir azdan nəvəm məni axşam yeməyinə çağırır. O biri nəvələrim, qızımın uşaqları da bizdədilər.

Şam yeməyindən sonra da bir az işləmək fikrindəyəm. Deyəsən, alınır. Saat onun yarısında televizorda bir filmə baxıram. Sakit filmləri xoşlayıram.

Film gec qurtarır. İşləməyə həvəsim yoxdu. Mənimki payız, qış aylarıdı. O aylarda daha asan, yaxşı yazıram.

Birtəhər yatmaq lazımdı. Ona görə birtəhər ki, istidə yaxşı yatmaq da olmur. Deməli, belə, ömrümüzdən bir gün də belə getdi.